**AZƏRBAYCAN RESPUBLİKASININ
AUDİTORLAR PALATASI ŞURASININ
QƏRARI**

**Bakı şəhəri** **№347/6** **31 avqust 2022-ci il**

**“Hüquqi şəxs tərəfindən aidiyyatı şəxslərlə əqdlərin bağlanmasının və əlaqəli tərəflərin maliyyə hesabatlarının auditinə dair Metodik Göstəriş” barədə**

“Azərbaycan Respublikasında auditor fəaliyyətinin inkişaf konsepsiyasında (2021-2030-ci illər)” nəzərdə tutulmuş tədbirlərin və Azərbaycan Respublikası Auditorlar Palatasının 2022-ci il üzrə iş planının 1.2-ci “Auditor fəaliyyəti ilə əlaqədar təlimatlar, tövsiyələr, metodik göstəriş və şərhlərin hazırlanması” bəndinə dair Qrafikinin 1-ci “Hüquqi şəxs tərəfindən aidiyyatı şəxslərlə əqdlərin bağlanmasının auditinə dair Metodik Göstərişin hazırlanması” bəndinin icrası ilə əlaqədar Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsi (E.İbrahimov) tərəfindən təqdim edilmiş “Metodik Göstəriş”in layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “Hüquqi şəxs tərəfindən aidiyyatı şəxslərlə əqdlərin bağlanmasının və əlaqəli tərəflərin maliyyə hesabatlarının auditinə dair Metodik Göstəriş” bəyənilsin (əlavə olunur).

2. Auditor təşkilatlarına və sərbəst auditorlara tövsiyə edilsin ki, auditor xidmətlərini göstərərkən “Hüquqi şəxs tərəfindən aidiyyatı şəxslərlə əqdlərin bağlanmasının və əlaqəli tərəflərin maliyyə hesabatlarının auditinə dair Metodik Göstəriş”in müddəalarından irəli gələn tələblər əsas götürülsün.

3. Sədrin müşaviri F.Qarayevə tapşırılsın ki, bu qərarın və “Metodik Göstəriş”in mətnləri Palatanın internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**